# XV Beynəlxalq Qəbələ Festivalı - "GabalaFest"

(Əvvəli 3-cü səhifədə).

**"GabalaFest" çərçivəsində yarmarka**





Heydər Əliyev Konqres Mərkəzinin ərazisində "GabalaFest" çərçivəsində təşkil olunmuş istehsal məhsulları və əl işlərindən ibarət yarmarkanın təntənəli rəsmi açılış mərasimi keçirilmişdir. Çoxsaylı xarici və yerli qonaqların, rayon ictimaiyyətinin və KİV nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tədbir iştirakçılarını və qonaqları salamlayaraq, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi, sosial və mədəni siyasət nəticəsində Azərbaycanın digər bölgələrində olduğu kimi, Qəbələnin də hərtərəfli inkişaf etdiyini, beynəlxalq miqyaslı tədbirlərə ev sahibliyi edən mühüm mərkəzə çevrildiyini qeyd etmiş, 15-ci dəfə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalının bu il təkcə zəngin musiqi proqramı ilə deyil, həm də regionun sosial-iqtisadi və mədəni həyatına gətirdiyi canlılıqla xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, belə möhtəşəm festivalın Qəbələdə keçirilməsinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva başda olmaqla Heydər Əliyev Fonduna Qəbələ ictimaiyyəti və öz adından təşəkkür etmişdir. Rəsmi hissədən sonra tədbir iştirakçıları istehsal məhsulları və əl işlərindən ibarət stendlərlə yaxından tanış olmuşlar. Proqram çərçivəsində DJ ifaları səslənmiş, "Vyetnam Bronze Drum Ensemble & Traditional Music" qrupu Vyetnamın milli musiqi və bürünc nağara şousunu nümayiş etdirərək, izləyicilərə fərqli mədəniyyətlərin rəngarəngliyini təqdim etmişdir.

QabalaFest 2026 çərçivəsində festival tarixində bir ilk olaraq kitab sərgisi və yarmarkası təşkil edilib. Festival yalnız musiqi ilə məhdudlaşmayıb, həm də ədəbiyyat və mütaliə mədəniyyətini ön plana çəkib.

Tədbir ərəfəsində nəşriyyatların stendləri, müxtəlif janrlarda (klassik, müasir Azərbaycan və dünya ədəbiyyatı, uşaq ədəbiyyatı) kitabların sərgisi və yarmarkası qurulub.

**Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarla görüş**

"GabalaFest" çərçivəsində müxtəlif səpgili silsilə tədbirlər, o cümlədən kitab sərgisi də təşkil edilmişdir. Kitab sərgisində ilk olaraq Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarla oxucuların və festival qonaqlarının görüşü keçirilib. Görüşdə yazıçının Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və ictimai fikrinin inkişafındakı müstəsna xidmətlərinə toxunulub, görkəmli ədibin zəngin yaradıcılığı haqqında maraqlı məlumatlar verilib. Görüş zamanı Xalq yazıçısı öz yaradıcılıq yolu, əsərlərinin yaranma tarixi və müasir Azərbaycan mədəniyyətinin inkişaf mərhələləri barədə təəssüratlarını bölüşmüş, iştirakçıların suallarını cavablandırmışdır. Sonda Xalq yazıçısı Anar festival çərçivəsində belə məzmunlu görüşlərin təşkilinə görə təşkilatçılara minnətdarlığını bildirmiş, oxucuların təqdim etdiyi kitabları imzalamışdır.



"QabalaFest" 2026 çərçivəsində təşkil olunan kitab yarmarkası təkcə xalq yazıçısı Anarın iştirakı ilə deyil, həm də müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri və yazarların imza günləri, panelləri ilə yadda qalıb.

**AMEA Prezidenti, akademik İsa Həbibbəyli ilə görüş**

"GabalaFest" çərçivəsində növbəti əhəmiyyətli tədbir Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti, akademik İsa Həbibbəylinin iştirakı ilə keçirilib. Tədbirdə akademik " Azərbaycan Milli Elmlər Akademiyası ilə TEAS Press Nəşriyyat Evinin birgə layihəsi: " Əsrləri Birləşdirən Ədəbiyyat" mövzusunda məruzə ilə çıxış etmişdir. Görüş Azərbaycan elminin və ədəbi-ictimai fikrin müasir inkişaf istiqamətləri, eləcə də milli-mədəni irsimizin tədqiqi və təbliği sahəsində görülən işlər ətrafında geniş fikir mübadiləsi ilə davam etmiş, görkəmli akademik öz elmi yaradıcılığı, akademik fəaliyyəti və müasir humanitar elmlərin qarşısında duran mühüm vəzifələr barədə fikirlərini bölüşərək, iştirakçıların suallarını cavablandırmışdır. Yüksək akademik abu-havada keçən görüşün sonunda akademik İsa Həbibbəyli müəllifi olduğu kitabları oxucular üçün imzalamış və xatirə şəkilləri çəkdirmişdir.

1 avqust tarixində Azərbaycanın keçmiş Xarici İşlər Naziri, ədəbiyyatşünas, tənqidçi və Bosniya və Hersoqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevlə oxucuların görüşünün keçirilməsi də nəzərdə tutulmuşdu.

**"GabalaFest" çərçivəsində görkəmli diplomat və ədəbiyyatşünas Vilayət Quliyevlə görüş keçirilib**

"GabalaFest" çərçivəsində növbəti ədəbi-maarifləndirici tədbir Azərbaycan Respublikasının sabiq Xarici İşlər Naziri, tənqidçi, ədəbiyyatşünas, ölkəmizin Bosniya və Hersoqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevin iştirakı ilə keçirilib. "Tədqiqat, Diplomatiya, Xeyriyyə" mövzusuna həsr olunan görüşdə görkəmli dövlət xadiminin diplomatik fəaliyyəti, elmi-ədəbi tədqiqatları və Azərbaycan mədəni irsinin beynəlxalq miqyasda təbliği sahəsindəki xidmətləri haqqında ətraflı məlumat verilib. Vilayət Quliyev öz zəngin həyat və peşə təcrübəsini, Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrini iştirakçılarla bölüşərək, oxucuların və festival qonaqlarının suallarını cavablandırıb. Səmimi









(Ardı 5-ci səhifədə).